# "İblis" dramı və demonizm problemi

*XX əsrin əvvəllərində dünyanın yenə də qızdırma-titrətmə içində çaxnaşdığı, sayıqladığı bir dövrdə - 1918-ci ildə Cavid "İblis" əsərini qələmə almışdır. "İblis" əsərinin süjeti və oradakı qəhrəmanların xarakteristikası bir gündə, bir həftədə, bir ayda ərsəyə gəlməmişdi. Cavid illərlə bu barədə düşünmüş, ən müxtəlif qaynaqlara müraciət etmiş və nəticədə dahiyanə bir əsər yaratmağa müvəffəq olmuşdu. İstər xronologiya, istərsə də ədəbi məfkurə baxımından bu əsər "Şeyx Sənan"ın davamı kimi səsləndiyindən, "Şeyx Sənan"da yalnız rüşeym halında gördüyümüz demonizm problemi burada bütün parlaqlığı ilə öz ideya-bədii əksini tapmışdır. Əgər əvvəlki faciədə mistik obrazlar "Əşxas" hissəsində yalnız epizodik "mələklər"lə təmsil olunmuşdusa, burada onların bütöv bir qalereyasına rast gəlirik. Bunlar lap başdan: İblis, Mələk, Teyf və teyflərdir. Hətta Arif özü də mistik bir rəmizdir. Ağılın, idrakın rəmzi. Hissi ilə idrakı arasında çarpışan, özünü tapmağa çalışan vicdanın simvoludur. Klassik mövzuda yazılmış bir əsərə nisbətən müasir mövzuda yazılmış əsərdə Cavid nə üçün mistik-mifik obrazların sayını artırmışdır? Bu suala cavab vermək o qədər də asan deyildir. Ancaq onu demək olar ki, bu əsərdə qoyulmuş problemlərin daha qlobal olduğunu nəzərə alaraq, Cavid onların həlli yollarını da mistik obrazlardan daha çox yararlanmaqda görmüşdü.*

*Doğrudur, İblis obrazı dini qaynaqlardan gəlir; ancaq dini qaynaqlardakı İblis obrazı ilə Cavidin İblisi arasında bir sıra fərqlər də mövcuddur. Onlardan birincisi - İblisin antropomorflaşdırılması, ən müxtəlif insan qüsurlarını təcəssüm etdirən obrazlar halında çıxış edə bilməsidir. Cavid artıq əsərin əvvəlində oxucunu yeni İblislə görüşə hazırlayır. Bu məchul bir varlıq deyil, məlum bir varlıq olan İnsandır. İblis xislətli, "İblis ilə həmrəngi - siyasət" olan bir insan.*

Qurani - Kərim iblisin nəinki cin və şeytanlardan hətta insanlardan da ola bilməsini qəbul edir və olan Ən- Nas (İnsanlar) surəsi bunu belə şərh edir. " De: Pənah aparıram insanların Rəbbinə; ...Vəsvəsə verən, Allahın adı çəkiləndə isə qorxusundan qaçıb gizlənən Şeytanın şərindən; ... O Şeytan ki, cinlərdən də olur, insanlardan da!"(Qurani- Kərim. "Çıraq" nəşriyyatı 2004. səh. 676).

Unutmaq olmaz ki, iblis nə qədər qadir olsa belə həqiqətdə Allahdan qorxur, çəkinir. Baxmayaraq ki, "Allahla bir zikr edilir namü nişanım" söyləyən İblisin özünün də etiraf etdiyi kimi, o, ilahi qüvvəyə bərabərhüquqlu müxalifət kimi çıxış edir və üstəlik çox zaman Tanrı səbrindən - qiyamət gününədək ona verilən möhlətdən faydalanaraq istədiyini etməkdə azad və sərbəstdir. Amma bu sərbəstliyin içində bir qorxu, bir xof var, Allah xofu. Lakin insan özünü o qədər qadir hesab edir ki, məqsədinə çatmaq üçün hər bir xəyanətə, rəzilliyə, qəddarlığa hazır olur. Fərdiçilik, şöhrət, mənsəb ön plana keçəndə, şəxsi mənafe cəmiyyətin mənafeyini üstələyəndə Cavidin təbiri ilə desək "altın və qadın düşkünü olan divanə bəbəklər" hakimi mütləq olanda İnsanın daxilindəki İblislik özünü biruzə verir və insanla iblis arasındakı fərq itir. Bu zaman Arifin dilindən verilən replikada Cavid Tanrı qarşısında qoyduğu sualın cavabında israrlı olmaqda haqlıdır.

**İnsanları xəlq etməkdə var bəlkə də hikmət, İblisə nə hacət!?**

Faciənin əsas tragik momenti özünü bir də orada göstərir ki, sanki Allah insanları İblislə mübarizədə tək qoyub, bu məkanı və insanları tərk edib və onlara iblislə mübarizədə yardım etmək istəmir. Əslində isə bu belə deyil. Böyük Tanrı yaratdığı bəndəsini sınağa çəkir. Bu imtahandan kimin üzü ağ çıxacağı sual altındadır. "Allah iblislə müharibə edir. Onların müharibə məkanı insan qəlbindədir". *(Dostoyevski)*

"And olsun ki, insanı biz yaratdıq və nəfsinin ona nə vəsvəsə etdiyini də biz bilirik. Biz ona şah damarından da yaxınıq". *(Qurani Kərim -Qaf surəsi 16 -cı ayə, - yenə orada , səh. 572).*



Cavidin bədii fəlsəfəsində Tanrı hər bir insanın öz qəlbində olduğu kimi, İblis də hər kəsin öz qəlbindədir və Tanrı - İblis qarşıdurması da, məhz hər bir insan üçün sınaq meydanıdır.

İnsan xeyir qüvvələrə meyillidirsə, "nəfsi- əmmarə"yə - şirnikləndirici, əmr edən nəfsə tabe olmursa, demək, onun qəlbində Tanrı - İblis qarşıdurmasında birinci ikinciyə qalib gəlir. Əks halda qələbə İblisin tərəfindədir. Yaradan ədalətli və adil olduğu üçün insana azad iradə və seçim hüququ verir. İnsan isə ona verilən bu hüquqdan istifadə edərək öz yaxşı və pis əməllərini törədir.

Cavid məhz bu nöqteyi nəzərdən "İblis" faciəsində insanın iblis səviyyəsinə enməsini, öz vəhşi ehtiraslarının qurbanı olmasını, cəmiyyəti deyil, yalnız özünü düşünməsini göstərməyə çalışmışdır. Əsərin əvvəlində nə qədər ki, Arif özünü deyil cəmiyyəti, insanlığı düşünür onun mənəviyyatı pozulmayıb. Amma o, şəxsi mənafeyini güddüyü andan ehtibarən, cəmiyyətə olan məhəbbət nifrətlə əvəz edilir, daxilində eqoizm baş qaldırır, qəlbinə, hisslərinə İblis hakim kəsilir.

Təsadüfi deyil ki, əsərin "Əşxas" hissəsindəki remarkada Cavid İblisin qiyafəsini, cinsini təsvir etmir və bunun əvəzində üç nöqtə qoyur. Əlbəttə, bunu İblisin simasısızlığı kimi də anlamaq olar; ancaq hər şeydən doğrusu, onun ən müxtəlif qiyafələrdə çıxış etmək bacarığıdır. O, Şərqdə abid olur, Qərbdə rahib və ya papa olur, ya da mürşid. Əslində isə onun kimin qiyafəsində olmasının heç əhəmiyyəti yoxdur. Onun varlığının özü bir faciədir.

Maraqlıdır ki, Cavid əsərə "Arif" adını deyil, "İblis" adını vermişdir. Deməli, əsərin baş qəhrəmanı da elə İblisin özüdür. Bu yalnız İblis surətinin özü və onun transformasiya qabiliyyəti ilə bağlı deyil; məsələ bundadır ki, faciədə təsvir və təqdim olunan obrazların hər birində İblisdən bir əlamət, bir nişanə vardır; məhz buna görə də əsərin obrazlar qalereyası bütövlükdə "iblis" anlayışını ehtiva etdiyindən, müəllifin bu adı seçimi çox uğurlu səslənir. Elə buna görədir ki, faciədə ideal obraza rast gəlmək mümkün olmur. Arif əsərin əvvəlində insanlardakı vəhşilikdən qaçırsa, sonda qaçdığı vəhşiliklərə doğru gedir və öz eqoizminin qurbanı olur.

Əslində İblisin məqsədi cəmiyyətə müxalif olan Arifin özünün də ideal olmadığını sübuta yetirməkdir. Burada İblisin məqsədi Arifi qardaş, qadın, dost qatilinə çevrmək deyil, onun timsalında hər bir insanın içindəki iblis imkan yaratmaq və bundan faydalanaraq Arifi kiçiltməkdir.

İlk baxışdan heç bir qüsuru olmayan və ideala yaxınlaşan Xavər və Rəna kimi obrazlarda da ideal mənəvi dəyərlərə xələl gətirən qısqanclıq və revanşizm kimi cəhətlərin olduğunu aydın görürük. "İntiqam, intiqam!" deyə Rənanı izləyən atasının teyfi, eləcə də İxtiyara rahatlıq verməyən Xavərin teyfi, əslində İblislə birləşərək, qan tökməyə, müharibəyə, döyüşə səsləyirlər. Hətta ədalət mücəssəməsi kimi nəzərə çarpan Elxanın özü belə son nəticədə ədalətin təntənəsini qurşunda, şərin məhvində görür; halbuki, bəşəriyyəti İblisin əlindən qurtaracaq yeganə qüvvə bağışlamaq və məhəbbətdir.

İblis - ziddiyyətlərin əlində oyuncağa dönən, polyar düşüncə və hərəkətlər arasında tərəddüd edən obraz yox, daha qətiyyətli, daha müdrik, daha qüdrətli bir obrazdır. Arif və İblis bir-birini tamamlayan, bir-birini inkar edə-edə dialektik inkişafa doğru yüksələn obrazlardır. Hər iki ipostas qəhrəman adını layiqincə doğruldur. Ancaq bu qəhrəmanlara "mənfi" və "müsbət" adlarını vermək çətinlik doğurur. Çünki onlarda mütləq mənfi və mütləq müsbət sifətləri aşkar etmək mümkün olmur. Bu isə Cavid dramaturgiyasında aparıcı istiqamətlərdən biri olan ziddiyyətlərin vəhdətində monumental obrazların doğulması xüsusiyyəti ilə bağlıdır.

Cavid öz yaradıcılığı ilə təkcə Azərbaycan xalqına deyil, bütün mütərəqqi bəşəriyyətə, bəşəriyyətin xeyir işlər düşünən və xeyir işlər həyata keçirən hissəsinə xidmət etmişdir. Bu böyük tarixi missiya bu gün də sənətkarın ölməz əsərləri ilə davam etdirilməkdədir.

*Gülşən Qafarova*